**Çinarə HEYDƏROVA**
AMK-nın müəllimi və doktorantı
Ünvan: Bakı, Yasamal rayonu, Ələsgər Ələkbərov 7
Email: m-chinara@yandex.ru

# MÜASİR AZƏRBAYCAN MUSİQİSİNDƏ BƏSTƏKAR DADAŞ DADAŞOVUN YARADICI SİMASI

***Xülasə:*** *Məqalə Azərbaycan respublikasının xalq artisti, bəstəkar Dadaş Dadaşovun yaradıcılığına həsr edilib. Tədqiqatda bəstəkarın yaradıcılıq yolu izlənilir, əsas əsərləri janrlar üzrə nəzərdən keçirilir, bəstəkarın dəsti-xəttinin ümumi xasiyyətnaməsi verilir. Bəstəkara aid bütün biblioqrafik məlumat, saytoqrafiya, səslənmiş ifalarla birgə toplanıb təsnifat edilmişdir deyə bəstəkarın yaradıcılığını tam əhatə edə bilən dəyərli material sayıla bilər. Bəstəkarın xalq musiqisinə münasibəti, xalq çalğı alətlərinə önəm verməsi və məxsusi olaraq xalq çalğı alətləri üçün əsərlər yazması xüsusi olaraq vurğulanır.*

***Açar sözlər:*** *Dadaş Dadaşov, bəstəkar, qanun, xalq çalğı alətləri*

Dadaş Dadaşov Azərbaycan bəstəkarlıq məktəbinin öz dəsti xətti ilə seçilən bəstəkarlarından biridir. Yaradıcılıq yolu milli musiqimiz üçün əlamətdar zamana düşmüş, yəni professional musiqi janrlarını mənimsəməkdən başlanğıc alaraq müasir bəstələmə texnikasının mənimsənilməsinə gedən yolda öz bədii axtarışlarını reallaşdıran bir bəstəkarın fərdi üslubunu araşdırmaq həmçinin Azərbaycan bəstəkarlıq məktəbinin inkişaf tarixini öyrənmək cəhdi kimi dəyərləndirilə bilər. Amma özündə fərqli üslublar, müxtəlif estetik platforma və yeni texniki vasitələrin tətbiqini birləşdirə bilmiş, 80 yaşı artıq haqlamış bəstəkarın yaradıcılığı kifayət qədər tədqiq edilməyib. Bir neçə məqalə [1; 2; 4; 5; 6; 7; 11] və bir magistr dissertasiyası [9] bəstəkarın yaradıcılıq yolunu tam əks etmək üçün kifayət deyil. Bu tədqiqatımızda Dadaş Dadaşovun yaradıcılıq yolunu janrlar üzrə təsnifat verərək biblioqrafik məlumatı tam məcmuda çatdırmaqla bəstəkar haqqında tam mənzərə yaratmağa çalışacağıq. XX əsrin musiqisinin bədii-estetik imkanlarından bəhrələnərək milli musiqisini yarada bilən bəstəkarın nailiyyətləri elmi tədqiqat üçün maraq doğurur.

Dadaş Dadaşov (Ağadadaş Hacıbala oğlu Dadaşov) 1935-ci il avqustun 30-da Bakı şəhərində xalq musiqiçisi ailəsində anadan olub. Xalq musiqisinə bağlılığın köklərinin elə məhz bu dövrdən, yəni ailədə xalq mahnıları, rəqsləri, muğamla yaxından tanış olduğu zamanda axtarmaq lazımdır. Səs yaddaşında xalq musiqi incilərini toplamış və uşaqlıqdan musiqi ilə maraqlanan gələcək bəstəkar ilk musiqi təhsilini 1 saylı uşaq məktəbində alıb. Musiqi təhsilinə tar aləti ilə başlaması demək olar ki, onun taleyini həll eləmiş oldu. Təhsilini A.Zeynallı adına Orta İxtisas Musiqi məktəbində (1950-1954 illərdə Adil Gərayın tar məktəbini keçib), daha sonra Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (1958-1963) davam etdirir. Amma yaradıcılıq yolunu bundan sonra artıq tarzən kimi deyil, bəstəkar kimi keçmək qərarına gəlir. Bəstələmək eşqini özündə hiss eləmiş musiqiçinin ardını bəstəkar kimi davam etmək

istəyi onu respublikanın xalq artısti, bəstəkar Cövdət Hacıyevin sinfinə gətirib çıxarır. Onun başqa fənlər üzrə müəllimləri G.Burşteyn, D.Danilov, E.Nikomarova, L.Karagiçeva, Q.İsmayılova, Ə.Eldarova, R.Hacıyev, S.Hacıbəyov, Z.Bağırov gələcək bəstəkarın təkcə biliyinin deyil, həmçinin intellektinin, dünyagörüşünün artmasında yaxından iştirak ediblər. Təhsil aldığı 1958-63-cü illərdə bəstəkar kimi püxtələşərək peşə sirlərinə bələd olmaqla yanaşı o, yeni musiqi təmayülləri və cərəyanlarına qarşı da etinasız deyildi. Erkən dövr əsərlərinə fortepiano repertuarında geniş istifadə edilən "Gəzinti", "Düşüncə", "Etüd-skerso" adlı pyesləri, skripka və fortepiano üçün "Adajio və skerso" (*İlk ifa: Bakı, 1961, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının böyük zalı. İfaçılar: Azad Əliyev, Vladimir Kozlov*), Nizaminin sözlərinə yazdığı romansları aid edə bilərik. Əsərlərə verilən qiymətə nəzərən əminliklə demək olar ki, gənc bəstəkarın uğurlarının artıq qiymətləndirməyə başlamışdılar. Belə ki, D.Dadaşovun diplom işi olan "Azərbaycan" simfonik poeması ilk dəfə "Zaqafqaziya baharı" musiqi festivalında səslənməyi ilə uğur qazanmağı bir olur. Bu əsər dərhal Ü.Hacıbəyli adına simfonik orkestrin konsert proqramına daxil edilir. İlk uğurunun ardınca bəstəkar müstəqil yaradıcılıq yoluna çıxaraq özünü demək olar ki, bütün musiqi janrlarında sınayır.

Həmin o əlamətdar konsertdə (burada A.Əlizadənin, M.Quliyevin, S.İbrahimovanın da əsərləri səslənmişdi) iştirak edən tədqiqatçı İmruz Əfəndiyeva əsərin Vətən, xalq və milli musiqimizlə bağlı olması ilə yanaşı ilk əvvəl bəstəkarın çox səmimiliyi barədə fikirlər səsləndirdi: "D.Dadaşov musiqidə olduqca səmimidir. Düşünürəm ki, Tanrıdan gələn qismətdir ki, Dadaş A.Zeynallı adına Musiqi Texnikumunda tar sinfində təhsil alıb. Bəstəkar Azərbaycan xalq alətlərinə və ümumiyyətlə, milli mədəniyyətimizə dərin məhəbbətini bu günə qədər qoruyub saxlamışdır" [4, s.141]. Bu əsərdə bəstəkar hələ ki, klassik musiqi qanunlarından kənar çıxmır. Bəlkə də əksinə, sonata formasının bütün qanunauyğunluqlarını nəzərə alaraq bünövrəli məktəb keçdiyini nümayiş etdirirdi.

Ola bilər, "Azərbaycan" simfonik poemasının (1963) (*İlk ifa: Bakı, 1964, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik orkestri, dirijorlar: Nazim Rzayev, Leo Ginzburq*) uğurunu həm də o dövrdə Qara Qarayev və Cövdət Hacıyevin sayəsində Konservatoriyada çiçəklənən yaradıcı mühitlə də bağlamaq olar. Bu əfsanəvi pedaqoqlar kompozisiya dərsi keçməklə kifayətlənməyərək hər tələbəyə fərdi yanaşır, bir həyat dərsi keçir və ən vacibi, şəxsi yaradıcılıq nümunəsində bu yolda ilk addımlarını atan bəstəkarlara görk olurdular. Müdrik pedaqoq Cövdət Hacıyev öz tələbəsi Dadaş Dadaşovu məhz belə xarakterizə edirdi: "Dadaş olduqca ciddi, məsuliyyətli və təvazökar insandır. O, mənim istəkli tələbələrimdən biridir. Oxuyan müddətdə işgüzarlığı, səliqəliyi ilə məni valeh edirdi. Onun yaradıcılıq yolu müəyyən məqsədə doğru yönəldilmişdir – xalq musiqisini dərindən öyrənmək, mənimsəmək və ona sadiq qalmaq. (...) Azərbaycan milli musiqisinin dərin qatlarına yiyələnməsi olduqca önəmli faktordur. Digər tərəfdən burada XX əsrin müasir musiqisinə xas olan xüsusiyyətlər də özünü büruzə verir. Ağadadaş Dadaşova böyük ümid bəsləyirəm" [4, s.142]. Təhsildə əldə etdiyi məhz bu professional səviyyə və səriştə gələcəkdə D.Dadaşovun fərqləndirici keyfiyyətinə çevriləcəkdi. Bəstəkarın diplom işi olan simfonik poemada biz Cövdət Hacıyevin belə də-

yər verdiyi milli musiqiyə sadiqliklə yanaşı lirik-dramatik səpgidə həllini tapmış əsərdə bəstəkarın öz müəlliminə sadiqliyinin də şahidi oluruq. Burada C.Hacıyevin "Sülh uğrunda" simfonik poeması ilə həm emosional, həm estetik səviyyədə, həmçinin də simfonik inkişaf prinsiplərinə görə yaxınlıq duyuruq. İlk kamil əsərindən başlanğıc almış həmin bu xətti, necə deyərlər müəlliminin müəllimi olmuş D.Şostakoviçdən ilhamlanan C.Hacıyevin simfonizminə dayaqlanmaq xəttini biz hələ bir neçə, hətta kamil dövr əsərlərində də müşahidə edəcəyik.

Dadaş Dadaşovun yaradıcılıq yolunu izlədikcə simfonik musiqinin xüsusi mövqedə olduğunu anlayırsan. Amma bəstəkar ilk simfoniyasını təqdim edincə kifayət qədər uzun müddət ara verib başqa janrlı əsərlər bəstələmişdi. Sanki 1 saylı simfoniyanın bəstələnməsi üçün hazırlıq dövrü gərək idi. 1981-ci ildə bəstələnmiş 6 hissəli "Böyük Vətən müharibəsində həlak olan azərbaycanlıların xatirəsinə" ithaf edilmiş I Simfoniya *(İlk ifa Bakı, 1985. M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası, Azərbaycan Bəstəkarlar İttifaqının Plenumu, Azərbaycan Dövlət Televiziya və Radionun Niyazi adına Simfonik orkestri, dirijor: R.Məlik-Aslanov)* bəstəkarın yaradıcılığında xüsusi bir mərhələdir. Plenumdan sonrakı müzakirələrdə Yelena Dolinskaya dinlədiyi ifalar içində bəstəkarın yaradıcılığını xüsusi qeyd etdi [14]. O ərəfədə bir neçə məqalənin dalbadal dərc edilməsi [12; 13; 14] bəstəkarın musiqi ictimaiyyətinin diqqətini çəkdiyinin göstəricisi kimi qəbul edilə bilər. Bəstəkarın 1985-ci ilin sonunda keçirdiyi yaradıcılıq gecəsində öz tələbəsinin təkamülünü izləmiş müəllimi Cövdət Hacıyev neçə il əvvəl səsləndirdiyi ümidlərinin nəticəsini belə şərh edirdi: "Dadaş Dadaşovun incəsənətdə keçdiyi yola nəzər salarkən inanırsan ki, onun yaradıcılıq həyatı zəngin və çoxşaxəli olmuşdur. D.Dadaşovun müxtəlif janrlarda yaratdığı orijinal əsərlər Azərbaycan musiqisini zənginləşdirmiş və respublika musiqi sənətinin inkişafına layiqli töhfə vermişdir" [12].

I Simfoniyanın musiqisi proqramlıdır və II Dünya savaşında həlak olmuş həmvətənlərimizin xatirəsinə ithaf edilib. Klassik sonata simfonik silsiləni 6 hissəyə qədər artırmağın özü əslində qanunları pozmaq kimi deyil, əksinə klassik formanı öz anlamından keçirmək kimi qəbul edilə bilər. Çünki simfoniyanın I hissəsi sonata-alleqro, II və III hissələri sanki işləmə funksiyasında, IV hissə asta templi ən kədərli (şüştər üstündədir) mərkəz olmaqla, V hissə skerso funksiyası daşımaqla, silsiləni ölənlərin ruhuna rekviyemlə bitirməklə bəstəkar sonata-simfonik silsilənin klassik quruluşunu çox da pozmuş olmur. "Daha çox səs simvolikasından istifadə edilib" [14] deyə burada D.Şostakoviçdən təkan alan xətti, mübarizə ideyasının musiqi təcəssümünü görməmək mümkün deyil. Əsərdəki hərb və sülh mövzusunu Y.Dolinskaya belə şərh edir: "Şübhəsiz ki, D.Dadaşovun hərb və sülh mövzusunun təcəssümü ilə bağlı simfoniyası ciddi bir işdir. Arxitektonika tənasüblüyü və parlaq müasir səs koloriti, ümumi emosional gərginlik əsərin cəlbedici cəhətlərindəndir. Partiturada bəstəkar müharibə dövrünə aid, məsələn D.Şostakoviçin "Leninqrad simfoniyası", A.Aleksandrovun "Müqəddəs müharibə" kimi məşhur əsərlərindən sitat gətirməyərək daha gözəl səs simvolikasından istifadə etmişdir: nəfəs alətlərinin rekviyemi, qəbüstü "söz" epizodları, təbilin həyəcan doğuran titrək səsi, səciyyə etibarilə çoxmənalı zərbli-gursəsli koda ilə nəticələnir" [14].

Bəstəkarın simfonik əsərlərini ardıcıl izləsək növbəti simfonik əsərinin 3 hissəli II Simli simfoniyanın *(İlk ifa: Bakı, 2007. Azərbaycan Bəstəkarlar İttifaqının VII*

*qurultayı, Azərbaycan Dövlət Televiziya və Radionun Niyazı adına Simfonik orkestri, Dirijor: A.Əliyev)* niyə məhz 20 il sonra, 2006-cı ildə yazılması üzərində düşünməli oluruq. Bu, nəinki bəstəkar üçün, həmçinin yaşadığı cəmiyyət üçün də tamam yeni bir dövr idi. Müstəqillik qazanmış ölkənin bəstəkarı artıq müasir dövrün ən qlobal insan-cəmiyyət problemini bu dəfə nikbin çalarlarda həll etməyə çalışır. Əsərdəki seriya texnikası və sonorluq artıq sual doğurmur. Çünki müasir zaman, müasir tematika öz vasitələrini diktə edir. "Simli orkestr üçün II simfoniyanın musiqisində müasir dövrümüzün mürəkkəb aşırımları, insan və cəmiyyət qarşıdurmasının gərginliyi özünəməxsus tərzdə, bir növ bəstəkarın nikbin çalarlara boyanmış düşüncələri süzgəcindən keçərək inikas olunur. Müasir kompozisiya vasitələrinin sərbəst şəkildə tətbiqinə əsaslanan bu əsərdə tematik material milli məqam özəyinə arxalanıb inkişaf əsnasında bir neçə məqamın intonasiyalarını özündə ehtiva etmək imkanını nümayiş etdirir" [5, s.101]. Simfonik əsərlərdə izlədiyimiz və D.Şostakoviç-Q.Qarayev-C.Hacıyev adlandırıla bilən xətti bu simfoniyanın II hissəsinin basso-ostinato polifonik variasiyasında, müəllifin passakaliyaya sadiqliyində daha aydın duyuruq. Bu polifonik janrın özünəməxsus təfsir prinsipləri "əfsanəvi üçlüyün" bəstəkarlıq texnikasına yaxın olmaqla bərabər muğam təfəkkür tərzi ilə çox ahəngdar səslənir.

D.Dadaşovun ən xoşbəxt taleli əsəri – qanun və simfonik orkestr üçün 3 hissəli Konserti (2009) *(İlk ifa: Bakı, 2009, "Azərbaycan Bəstəkarlar İttifaqi-75" beynəlxalq musiqi festivalı, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik orkestri, dirijor: Fəxrəddin Kərimov, solist – Günel Adıgözəlova (I hissə)* elə ilk ifasından hamını valeh etdi. İlk ifanı izləmiş musiqişünas Lalə Hüseynovanın xatirələrindən: "2012-ci ildə Ukraynada keçirilən "Azərbaycan musiqi günlərində" və Tatarıstanda baş tutmuş "Türkdilli ölkə bəstəkarlarının I Musiqi Festivalında" səslənən bu ifaları bilavasitə izləmək imkanı əldə etmiş bir şəxs kimi qeyd etməliyəm ki, Dadaş Dadaşovun qanun konserti dinləyicilər və mütəxəssislər tərəfindən xüsusi rəğbətlə qarşılanmış, haqlı olaraq yüksək rəylərə layiq görülmüşdür. Qədim qanun alətinin məxsusi tembr çalarını böyük simfonik orkestrin zəngin palitrası ilə uzlaşdırmış bəstəkar musiqi toxumasını milli musiqinin cazibədar, dəyişkən və mürəkkəb ritm-intonasiya formulları üzərində qurmaqla uğurlu bədii nəticə əldə etmişdir. Əsərin məziyyətləri haqqında ünlü bəstəkarlar tərəfindən səsləndirilən qiymətli fikirlər Dadaş Dadaşovun bu əsərinin heç şübhəsiz ki, əsl müvəffəqiyyətindən xəbər verir" [7, s.9].

Bu əsər qanun üçün yazılmış ilk konsert nümunəsidir. Müasirlik və millilik məsələlərinin özünəməxsus tərzdə həllini XX əsr musiqisində xüsusi status qazanmış konsert janrı çərçivəsində – biz burada tamam yeni orkestr yazısı, tembr seçimi, yeni harmoniya, təkamül prosesini keçmiş forma həllini müşahidə edirik. Konserti həyata gətirən əsas ideya isə Türkiyə qanun ifaçılıq məktəbinin fərqli üsullarını konsert janrının əsas prinsipləri – parlaq ifaçılıq effektləri, virtuozluq, improvizəlilik, orkestr və solist arasında yarışma prinsipini saxlamaq şərtilə milli musiqiyə gətirmək idi. Bu əsər konsertvarilikdən daha çox simfonikliyə yaxın olan kompozisiyadır. İki təzadlı dünyaların – Qərb və Şərqin qovşağında yaranmış milli alətlər üçün yazılan konsert janrı hər iki dünyanın məziyyətlərini özündə birləşdirməklə sübut etdi ki, bu təfəkkür tərzləri də yanaşı və qovuşuq şəkildə mövcud ola bilər. Qanun alətinin spesifik tembr çalarla-

rı, səslənmə xüsusiyyətlərini saxlamaqla ifaçılıq texnikasının daha da yüksəyə qaldırılması əsərin ən böyük uğurlarından biridir. Biz bu əsərdə də C.Hacıyevin simfonik inkişaf prinsiplərinin təsirini duymaya bilmərik. Bəstəkarın orkestləşdirmə ustalığı, dinamikanı artıraraq kulminasiyaya çatdırmaq bacarığı və forma tənasüblüyü duyğusu xüsusi qeyd edilməlidir. Bu əsərin əsas məziyyətlərindən biri də odur ki, yaranması ilə qanun ifaçılıq məktəbini daha yüksək professional səviyyəyə qaldırmaqla bərabər yeni tələblərə uyğunlaşa bilən qanun ifaçıları yetişdirir. Bu konsertin I hissəsinin ilk ifaçısı Günel Adıgözəlova [22], konsertin Ukraynadakı ifasının [23] və II-III hissələrin [24] ilk ifaçısı Çinarə Heydərovanın ifaçılığında qanun konserti bir mərhələ təşkil edir.

D.Dadaşovun 3 hissəli Kamera simfoniyası *(2012) (İlk ifa: Bakı, 2012, Azərbaycan Bəstəkarlar İttifaqının VIII qurultayı, Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, dirijor: Teymur Göyçayev)* simfonik yaradıcılığının müxtəlif dövrlərdə yazdığı əsərlərinin izlədiyimiz ardıcıllığında sonuncu və yekun xassəli bir əsəridir. Bəstəkarın yaradıcılığında simfonik silsilənin 6 hissədən 3 hissəyə qədər azalması və kameralaşmasını izlədikcə bütün bunların zamanın hökmü altında baş verdiyini düşünməli olursan. Müasirlik sənətkardan lakoniklik, müxtəsərliklə yanaşı dövrün qlobal problemlərini aydın, amma rahat anlaşılan vasitələrlə, bəzən səs simvolikası ilə çatdırmağı tələb edir. Artıq ahıl yaşında bəstəkarın simfonik musiqisinin də kameralaşması prosesini izlədikcə kamera instrumental musiqinin D.Dadaşovun yaradıcılığında necə önəmli rəmzi mövqedə olduğunu anlamağa başlayırsan.

Musiqişünas Kəmalə Ələsgərli bəstəkarın 75 illik yubileyi şərəfinə yazdığı məqalədə bəstəkarın məhz kamera instrumental yaradıcılığında milli musiqi elementlərinin daha aydın şəkildə təzahür etdiyini qeyd edir: "Dadaş Dadaşov özünün kamera, əsasən də instrumental ansambl musiqisində çox şeyə müvəffəq olmuşdur. Bu obraz əhvali-ruhiyyənin parlaq, lakin məharətlə verilən müxtəlif səciyyəliliyi, musiqili tematik fakturaya uyğun ifadə imkanlarının bacarıqla üzə çıxarılması, səs xətlərini təşkil edən uyğunluğun lazımi ifadəsi, ən nəhayət musiqi materialının tam mənada uyarlıq təşkil etməsi və konkret janr – semantik mənada musiqi formasının quruluşundakı hədd bilmə hissidir" [5, s. 99].

1975-ci ildə yazılmış 3 hissəli Simli kvartet *(İlk ifa: Bakı, 1976, Azərbaycan Bəstəkarlar İttifaqinin Plenumu, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası, İfaçılar: Azad Əliyev, Əlimuxtar Babayev, Tofiq Aslanov, Rası Abdullayev),* 1984-cü ildə yazılmış 3 hissəli Simli trio *(İlk ifa: Bakı, 1985, Azərbaycan Bəstəkarlar İttifaqının konsert salonu, müəllif konserti, İfaçılar: Azad Əliyev, Çingiz Məmmədov, Rası Abdullayev),* 1989-cu ildə yazılmış Kvartet-poema *(İlk ifa: Bakı, 1990, Azərbaycan Dövlət Radiosu. İfaçılar: Azad Əliyev, Əlimuxtar Babayev, Tofiq Aslanov, Rası Abdullayev)* D.Dadaşovun 70-80-cı illərə təsadüf edən yaradıcılıq çiçəklənməsi dövrünün məhsuludur. Bu əsərlər hər biri konsert repertuarından düşməyən əsərlərdir. Bəstəkar bu dövrdə yaradıcılığının əsas qayəsi sayıla biləcək ideyanı – milli kamera musiqisi mühitində milli musiqi intonasiyasını müasir texniki üsullarla klassik janrlar çərçivəsində reallaşdırmağa çalışırdı. Xüsusi qeyd etməliyik ki, Azərbaycan kamera-instrumental musiqisində məhz bu tərkibdə yazılmış ilk trio nümunələrindən biri D.Dadaşova məxsusdur. "Əsərdə biz simli alətlərin texniki priyomlarından, səslənmənin bir-birinə uyğunlaşmasından, milli və müasir Avropa musiqi dilinin üzvi surətdə

birləşməsindən bəstəkarın bacarıqla istifadəsinin şahidi oluruq" [11, s.115]. D.Dadaşovun kamera instrumental əsərlərində biz bəstəkarın zövq amillərinin necə formalaşdığını izləyirik. Sanki təcrübə laboratoriyasında olduğu kimi müəllif ideyalarını kamera formatında sınaqdan keçirir. Milli musiqi, muğamlardan heç vaxt ayrı düşməyən bəstəkar artıq seriya texnikasını tətbiq etməyə başlayır. Amma nə qədər parodoksal olsa da istinad pərdəsini, məqam münasibətləri, harmoniyanı inkar edən seriya texnikasının tətbiqində bəstəkar milli məqamlardan uzaqlaşmır. Hətta demək olar ki, yeni texniki vasitəni məhz milli musiqisini yazmaq üçün tətbiq edir. D.Dadaşovun nəfəs alətləri orkestri üçün yazdığı "Zəfər marşı", "Təyyarəçilər marşı", violin və fortepiano üçün bəstələdiyi "Elegiya və skerso" (2003) kimi kamera instrumental əsərlərində də özü üçün müəyyənləşdirdiyi yolda millilk və müasirliyin vəhdətinə can atmışdır.

Bəstəkarın seriya texnikası ilə maraqlanmasının biz erkən dövrə aid edilə biləcək fortepiano prelüdlərində artıq hiss edirik. Cövdət Hacıyevə ithaf edilmiş 24 prelüd bu sahədə bəstəkarın nəzərəçarpacaq uğurlarından biridir. 1978-ci ildən yazılmağa başlamış hərəsində 12 prelüd olan 2 dəftərlik fortepiano üçün "24 prelüd" silsiləsi (*İlk ifa: I hissə - Bakı,1979, Azərbaycan Bəstəkarlar İttifaqının V qurultayı. Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının böyük zalı, İfaçı: D.Süleymanova. II hissə - Bakı, 1985, Azərbaycan Bəstəkarlar İttifaqının konsert salonu, müəllif konserti, ifaçı Namiq Sultanov*) pedaqoji repertuarda geniş istifadə edilir. Prelüdlərin yazıldığı dövr (1978-1985) xüsusilə də prelüdlərin II dəftərinin artıq işıq üzü gördüyü il bəstəkarın daha bir neçə əlamətdar əsərləri (Rəsul Rzanın sözlərinə "Rənglər" vokal silsiləsi və Böyük Vətən Müharibəsində həlak olanların xatirəsinə" Simfoniyası) meydana gəlməsi bu əsərlər arasında müəyyən intonasion bağlılığın olması barədə ehtimal irəli sürməyə əsas verir.

24 fortepiano prelüdünün 2 dəftərdə toplanması ideyası özü musiqi tarixində qədim dövrlərə uzanan bir ənənənin müasir zəmində davamıdır. Amma D.Dadaşovun 24 prelüdü F.Şopenin, K.Debüssinin, S.Raxmaninovun, A.Skryabinin prelüdlərinin xəttini deyil Baxın "Yaxşı temperə edilmiş klavir"i, P.Hindemitin "Ludus Tonalis"i, D.Şostakoviçin 24 prelüd və fuqası, R.Şedrinin, Q.Qarayevin, və C.Hacıyevin prelüdlərinin məntiqi davamıdır. Emosional cəhətdən zəngin, hərəsi bir duyğu daşıyıcısı olan romantik prelüdlərdən daha çox onlar dəqiq tonal çərçivə, müəyyən düzülüş qaydası, dərin fəlsəfi fikirləri çatdırmağa qadir olan fikir yumaqlarıdır. Əgər Bax prelüdlərini xromatik ardıcıllıqla major və minor tonallıqlarının təzadını götürməklə dinləyici və ifaçıları temperasiya edilmiş tonallıqlara öyrəşdirməyə çalışırdısa həmin bu prinsipdən ilhamlanan D.Şostakoviç (Şostakoviçin 24 prelüd və fuqası Baxın ölümünün 200 illiyinə yazılsa da "YTK"-da olduğu kimi xromatik deyil, kvinta dairəsi üzrə düzülüb), onun ardıcılları Q.Qarayev (Qarayevin müəyyən tonal qaydada düzülmüş 24 prelüd və 12 fuqası ayrı-ayrı məcmuələrdir), C.Hacıyev (C.Hacıyevin prelüdlərinin sayı 24 olmasa da kvinta dairəsi üzrə major-minor tonallıqların növbələşməsi bu ənənənin davamı kimi qəbul edilə bilər) kimi bəstəkarların bədii axtarışlarının istiqamətini davam edən D.Dadaşov məcmuədə təzad prinsipini mahnı-rəqs ruhlu musiqi və muğamvarilik arasında götürərək seriya texnikasını tətbiq edir. Prelüdlərdə C.Hacıyevin V simfoniyasından sitatın istifadə edilməsi (11 saylı prelüddə) D.Dadaşovun da bu intellektual cərəyana qoşulmaq cəhdindən xəbər verir. Seriya texnikası ilə "hörülmüş" prelüdlərin

linearlığı həm polifonik inkişaf üsulları, eləcə də muğamvariliklə əlaqələndirilə bilər. Prelüdlər 4 növ seriya modusuna əsaslanır və onların mərkəzi əskildilmiş üçsəslik (a-c-dis(es), burada a mərkəzi tondur) səs birləşməsi təşkil edir [9, s.16]. I dəftərdəki prelüdlər eyni sıraya əsaslanır, qalan prelüdlər isə birincilərin inversiyasıdır. Bu prinsip R.Şedrinin 24 prelüd və fuqasında da tətbiq edilib. Mürəkkəb texnika tətbiq edilsə də xalq musiqisindən gələn ritm-intonasiya, janr özünəməxsusluğu, faktura şəffaflığı məcmuənin milli musiqi ilə sıx bağlılığını aşkar edir.

D.Dadaşovun fortepiano üçün yazdığı daha bir neçə əsəri də - fortepiano üçün Prelüd, Düşüncə, Etüd-skerso (1963) *(İlk ifa: Tbilisi, 1965, Zaqafqaziya musiqi ifaçılarının II müsabiqəsi. İfaçı: Vəfa Əliyeva)* vardır ki, pedaqoji repertuarda, eləcə də ifaçılıqda geniş istifadə edilir.

Musiqişünas İmruz Əfəndiyeva D.Dadaşova həsr etdiyi (eləsə də Rəsul Rzanın 100 illik yubiley ilində yazdığı) "Axtariş yollarının bəhrəsi" adlı məqaləsini [4] "Rənglər" vokal silsiləsinin (1976, metso soprano, fleyta və violonçel üçün (Rəsul Rzanın sözlərinə) *(İlk ifa: Bakı, 1985, müəllif konserti. Azərbaycan Bəstəkarlar İttifaqının konsert salonu, solist – N.Qolovnya)* təhlili ilə başlaması özü əlamətdardır. Çünki hər rəngə ayrıca bənzətmə verən Rəsul Rzanın mətnində olduğu kimi Dadaş müəllimin musiqisində də Xeyir və Şər arasındakı əbədi mübarizədən danışılır. Musiqi dramaturgiyasının əsasını təşkil edən "ağ" və "qara"nın qarşıdurması bəstəkarın yaradıcılığında izlədiyimiz mübarizə xəttini təmsil edən əsərlərdəndir. Polifonik inkişaf prinsipləri və C.Hacıyevdən gələn simfonizm və seriya texnikası ilə bərabər milli məqamların tətbiqi qeyri-adi tərkib üçün yazılmış vokal məcmuənin əsas xüsusiyyətlərindəndir. Məcmuədə sonuncu miniatürdən başqa (burada bütün alətlər birgə ifa edir) hər nömrədə vokalı yalnız bir alət müşayiət edir. Bəstəkar Rəsul Rzanın 40 şeirlik "Rənglər" məcmuəsindən (R.Rza zamanında azad şeir formasına görə kəskin tənqid edilmiş bu əsərin "Duyğular, düşüncələr" kimi adlandırılmış ilkin variantına 27 şeir daxil etmişdi) cəmi 5 şeir seçərək ("Ağ", "Yaşıl", "Mavi", "Qara", "Ağ işığın sevinc çaları") diqqətini sanki əsas rənglər üzərində toplayır.

"Rənglər" silsiləsi fikir lirikasının yüksək təcəssümünə nümunədir. Burada rənglər adi boya deyil, insanın daxilində oyanan duyğuların müxtəlif incə çalarları, rəsmlə bağlı yaddaşı, inamlarının məcmusu, idealıdır. Ola bilər, şeirlərin azad bəhri bəstəkarı dodekafoniya texnikasına müraciət etməyə vadar edib. Nəticədən məlum olur ki, D.Dadaşov bu məcmuədə şeirin ritm-intonasion quruluşunu daha önəmli sayaraq musiqini məzmuna tabe edib. Məcmuədə miniatürlərin ardıcıllığından məlumdur ki, bəstəkar həyatın "işıqlı səhərindən" ("Ağ") başlayaraq "qaranlıq gecəni" ("Qara"), fəlsəfi düşüncələri ("Mavi"), insanın həyat yolunu ("Yaşıl") mərhələlər kimi adlayaraq yenidən işığa ("Ağ işığın sevinc çaları") qayıdır. Həmin bu işıq təntənəsi D.Dadaşovun yaradıcılıq yolunun hər mərhələsində özünü aydın büruzə verir.

D.Dadaşov bir sənətkar kimi yüksək meyarların önə çəkilməsinin tərəfdarıdır. Bir tək vokal əsərlərinin mətn seçiminə diqqət versək ("Ay üzlü nigarım" (söz. Nizaminindir), səs və kamera orkestri üçün "Dəniz" (2014) (söz. H.Cavidindir) romansları, səs və fortepiano üçün "Azərbaycan" balladası (söz. A.Yıldırımın), səs və simfonik orlestr üçün "Azərbaycan, ana torpaq" odası (1996), (söz. Y.Həsənbəyindir) *(İlk ifa: Bakı, 1998, "Bura Vətəndir" mahnı müsabiqəsi. İfaçı: Mehri Arif qızı),* "Uğur olsun"

vokal-instrumental süita (2014) (söz. A.Şaiqindir)) bəstəkarın həm öz qarşısında, həm də ədəbi mənbə qarşısında çəkdiyi hədd, yüksək bədii meyarlara görə tələbkar olduğunun şahidi oluruq. Bu sıraya L.Akanın seirinə səs və fortepiano üçün "Röya" romansı (2002) və Y.Solmazın sözlərinə C.Rumiyə həsr eidlmiş "Mevlana" vokal-instrumental kompozisiyasını da *(bu əsərlər ilk dəfə Türkiyənin Ərzurum şəhəri Atatürk Universitetində ifa edilib)* əlavə etmək lazımdır. Parlaq deklamasiya ilə seçilən vokal melodiyaları gözəl poetik mətnə düzmək üçün həm də melodist olmaq lazımdır. Melodist kimi formalaşmağı isə D.Dadaşovun yaradıcılığını daha erkən, yəni təhsilinə tarzən kimi başladığı dövrdən izləmək lazımdır.

Əmək fəaliyyətinə 1954-cü ildən, yəni musiqi məktəbini bitirən kimi tarzən kimi başlaması da bəstəkarın yaradıcı irsində öz izini qoymaya bilməzdi. Adil Gərayın sinfində oxuyarkən o, tarzən kimi fərqləndiyindən Səid Rüstəmov tərəfindən orkestrə bir ifaçı kimi dəvət alır. D.Dadaşov 1958-1963 illərdə Azərbaycan Televiziya və Radio Komitəsi nəzdindəki Azərbaycan Xalq Çalğı alətləri orkestrində tar ifaçısı kimi çalışır. Ramiz Zöhrabovun D.Dadaşov barədə araşdırmasında kiçik bir fakt maraq doğurur. Hacı Xanməmmədovun 1952-ci ildə bəstələdiyi ilk tar konsertini Bakı Musiqi Texnikumunun tələbələri arasında ilk dəfə məhz D.Dadaşov çalmışdır. Konsert Ü.Hacıbəyli adına Azərbaycan Dövlət simfonik orkestrinin ifasında, əfsanəvi dirijorumuz Niyazinin idarəsi ilə baş tutmuşdur.

D.Dadaşov tarzən kimi orkestrin tərkibində çoxlu qastrol səfərlərində olur, orkestrin spesifik tərəflərini necə deyərlər, daxildən öyrənir. Nəticədə orkestri duyan bəstəkar kimi formalaşır. Milli ruhu duyan bəstəkar zövqü formalaşdıqca sanki xalq çalğı alətləri üçün yazılacaq əsərlərin bünövrəsi qoyulur. Erkən dövrə aid edilən 24 prelüd silsiləsində D.Dadaşovun öz müəllimi C.Hacıyevin V simfoniyasından mövzunu 11-ci prelüddə istifadə etməklə yanaşı 9 saylı prelüddə Əhsən Dadaşovun melodiyasını istifadə etməsi faktı özü simvolikdir. Bəstəkar öz yaradıcılıq kredosunu bu tərzdə çatdırmağa çalışır. Məhz xalq ruhunda melodiyalar, xalq çalğı alətləri və xalq çalğı orkestri ilə erkən dövrdə yaranmış qırılmaz bağlar bəstəkarı formalaşdıran əsas amillərdən biridir.

D.Dadaşovun xalq çalğı alətlərinə marağını 2 ən çox ifa edilən əsərinin nümunəsində daha aydın görmək olar. Qanun və fortepiano üçün "Çinarənin sevinci" Skersosu (1996) *(İlk ifa: Bakı, 1996, Orta ixtisas məktəblərinin XÇA ifaçılarının müsabəsi. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının zalı. İfaçı: Çinarə Mütəllibova)* ilk ifasından az qala dillər əzbəri oldu. Bu əsər müxtəlif yaş kateqoriyalı qanun ifaçıları üçün ləzzətlə ifa edilən əsərlərdən biridir. Kamança və fortepiano üçün "Əlvan naxışlar" kapriççiosu (2012) *(İlk ifa: Bakı, 2013, Ü.Hacıbəyli adına V musiqi festivalı, Azərbaycan Bəstəkarlar İttifaqının konsert salonu. İfaçılar: Mədinə Şahgəldiyeva, Sevinc Kərimova)* isə artıq xalq çalğı alətləri orkestri üçün yazılan süitalardan sonra ərsəyə gəlməsi ilə sanki bir dövrə (1966-2012) yekun vurdu. "Bəstəkarın qanun alətinə böyük marağını 1996-cı ildə bəstələdiyi "Çinarənin sevinci" adlı qanun və piano üçün parlaq Skerso əsəri də nümayiş etdirir. Onu da qeyd etmək lazımdır ki, hər iki əsər qanunçalan Çinarə Mütəllibovanın ilk ifasında məşhurlaşmışdır. Əməkdar artist fəxri adına layiq görülmüş bu gənc və istedadlı qanun ifaçısının ən müxtəlif repertuarı əxz etməyə qadir universal qanun çalan kimi yetişməsində və ümumiyyətlə, qanun ifa-

çılığında son illər müşahidə edilən yeni virtuoz ifa üslubunun yaranmasında bu əsərlərin rolu danılmazdır. Bu fikirləri digər istedadlı və gənc ifaçı – kamançada virtuoz ifa tərzi ilə diqqət çəkən Azərbaycan Milli Konservatoriyasının tələbəsi Mədinə Şahgəldiyeva barəsində də demək mümkündür. 2013-cü ildə V Beynəlxalq Ü.Hacıbəyli Musiqi Festivalı zamanı Bəstəkarlar İttifaqının kamera salonunda D.Dadaşovun kamança və fortepiano üçün "Əlvan naxışlar" kapriççiosunun yaddaqalan premyerası oldu. Bu əsər, onu xüsusi bir şövq və məharətlə ifa edən Mədinə Şahgəldiyevanın potensial imkanlarını yeni çalarlarla "bərq vurmağa" gözəl zəmin yaratdı. Əlamətdardır ki, bu parlaq konsert pyesi Mədinə Şahgəldiyevaya bir sıra nüfuzlu xarici festivallara dəvət də qazandırdı. Tatarıstan Bəstəkarlar İttifaqının sədri, görkəmli tatar bəstə-ka-rı, xalq artisti, "Avrasiya Beynəlxalq Musiqi festivalı"nın bədii rəhbəri Rəşid Kalimullinin dəvətilə Kazan şəhərinə yollanmış Mədinə Şahgəldiyeva növbəti festivalda bu əsərin əla ifası ilə dinləyiciləri heyrətləndirmişdi. Təbii ki, bütün bunlar ilk növbədə bəstəkar-ifaçı tandeminin uğurlu nəticələridir. Dadaş Dadaşovun "Əlvan naxışlar" kapriççiosu isə kamança repertuarında hətta bir virtuozluq rəmzinə də çevrilə bilər" [7, s.9-10]. Onu da qeyd etmək lazımdır ki, hər iki əsər ifaçılıq baxımından kifayət qədər mürəkkəbdir və mürəkkəb pasajlarla zəngin virtuoz pyeslərdir [32]. Heç də təsadüfi deyil ki, kapriççionun uğurundan sonra bəstəkar əsərin adını dəyişib ifaçının şərəfinə "Mədinənin kamanı" qoymuşdur.

D.Dadaşovun xalq çalğı alətləri orkestrinə bəstəkar marağı hələ 1966-cı ildə "Lirik rəqs"lə *(İlk ifa: Bakı, 1967, Azərbaycan Bəstəkarlar İttifaqının Plenumu. Xalq çalğı alətləri orkestri, dirijor: Nəriman Əzimov)* başlayıb. Daha sonra orkestr süitaları yaranmağa başladı. I süita (1967) *(İlk ifa: Bakı, 1967. Azərbaycan Dövlət Radiosu, Xalq çalğı alətləri orkestri, dirijor: Nəriman Əzimov),* II süita (1972) *(İlk ifa: Bakı, 1972, Azərbaycan Dövlət Radiosu. Xalq çalğı alətləri orkestri, dirijor: Nəriman Əzimov. İkinci redaksiyası: 2012, Azərbaycan Bəstəkarlar İttifaqinın IX qurultayı, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası, Xalq çalğı alətləri orkestri, dirijor: Ağaverdi Paşayev),* III süita, (1983). *(İlk ifa: Bakı, 1983, Azərbaycan Dövlət Radiosu, Xalq çalğı alətləri orkestri, dirijor: Nəriman Əzimov),* IV süita "Qobustan lövhələri", (2005). *(İlk ifa: Bakı, 2006, Azərbaycan Bəstəkarlar İttifaqının Plenumu, Xalq çalğı alətləri orkestri, dirijor: Ağaverdi Paşayev)* və 2015-ci ildə V süita ərsəyə gəldi. Süitalardan başqa D.Dadaşov 1981-ci ildə yazılmış "Rəqs lövhəsi" *(İlk ifa: Bakı, 1981, Azərbaycan Dövlət Radiosu, Xalq çalğı alətləri orkestri, dirijor: Nəriman Əzimov)* və 2001-ci ildə yazılmış "Konsert marşı"nın *(İlk ifa: Bakı, 2007, Azərbaycan Bəstəkarlar İttifaqının VIII qurultayı. Xalq çalğı alətləri orkestri, dirijor: Ağaverdi Paşayev)* müəllifidir. Xalq çalğı alətləri orkestri üçün yazılmış bu əsərlər obraz emosional təravəti və ritm-intonasiya özünəməxsusluğu ilə seçilir. Məlumdur ki, xalq çalğı alətləri orkestri üçün xüsusi yazılmış əsərlərə ehtiyac böyükdür və bu problem hələ də tam çözülmüş sayıla bilməz. Repertuar problemini köçürmələr və işləmələr vasitəsilə həll etməyə çalışan bir orkestr üçün bu əsərlər əsl töhfədir. Çünki burada hər alətin spesifikası, tembri, ifaçılıq xüsusiyyətləri nəzərə alınaraq ona xas olmayan səslənmələrdən qaçmaq mümkün olmuşdur. Sadaladığımız bu əsərlər tez-tez radio dalğalarında səsləndirilir. "Bu əsərlər şablondan uzaq, təravətli obraz-intonasiya dairəsi ilə diqqəti cəlb edir. Əsərlərin bir mühüm keyfiyyəti də onların dolğun orkestr səslənməsidir.

Orkestrləşdirmə ustası olan Dadaş müəllim adətən, bu sayaq əsərlərin orkestr üslubuna xas olan yeknəsəqlikdən (unison səslənmələr, alət qruplarının qeyri-mütənasib tənzimi) qaçmağın yollarını gözəl duyur. Simfonik orkestrlə müqayisədə xalq çalğı alətləri opkestrlərimizin nisbətən məhdud imkanları bəstəkar üçün əngəl törətmir, əksinə ona yaradıcılıq fantaziyasından, bu sahədə geniş bilgilərindən maksimum bəhrələnməyə meydan açır” [7, s.9].

D.Dadaşov bir sıra mahnıların da müəllifidir: “Gözəldir” (söz. A.Babayevindir), “Qızım” (söz. A.Babayevindir), “Sənin xətrinə” (söz. T.Mütəllibovundur), “Qızıl lalə” (söz. R.Heydərindir), “Qobustan qayaları”, “Buludlar kimi”, “Yaxşı adamlar”, “Qocalar”, “Anaların ürəkləri”, “Bilək qədrini”, “Qızlar gözəlləşir”, “Evinizdə yanan işıq”, “Təzədən” (söz. T.Mütəllibovundur), “Məhəbbətim”, “Qismətim”, “Xatirə”, “Savalanın suyu sərin” (söz. İ.Göyçaylının), “Bakı haqqında mahnı” (söz. G.Fəzlinindir), “Səni görməsəm” (söz. B.Vahabzadənindir), və s. Sadaladığımız mahnıların ilk ifaları 1964-97 illərdə Azərbaycan Dövlət Radiosunda səsləndirilib. İfaçılardan Gülağa Məmmədov, Elmira Rəhimova, Nərminə Məmmədova, İslam Rzayev, Yaqut Abdullayeva, İdris Mehdiyev, Brilyant Dadaşova, İlqar Muradov kimi sənətkarlar bu mahnıları sevə-sevə oxumaqla xalq yaddaşında həkk ediblər.

D.Dadaşovun həyat yolu və yaradıcılığını izlədikdə gözümüzün qarşısında özünü reallaşdıra bilmiş bəstəkar obrazı canlanır. Onun əsərləri Azərbaycan Bəstəkarlar İttifaqının qurultay, plenum və festivallarında, efirdə müntəzəm şəkildə səslənən əsərlərdəndir. Bununla belə bəstəkarın əsərləri xarıcı ölkələrdə, Moskva, Ankara, Paris, Kiyev, Minsk şəhərlərinin konsert salonlarında dəfələrlə səsləndirilib. 2005-ci ildə Azərbaycan Respublikasının “Əməkdar İncəsənət xadimi” 2008-ci ildə isə xalq artisti fəxri adlarına layiq görülüb. Bəstəkarın 80 illik yubileyi şərəfinə respublikada 3 günlük festival keçirildi və musiqi ictimaiyyəti D.Dadaşovun bütün əsərlərinin bir daha dinləyə bildi.

Bəstəkar obrazının tam olması üçün biz D.Dadaşovun pedaqoji fəaliyyətini də bir nüans olaraq araşdırmamıza daxil etməliyik. Əmək fəaliyyətinə tələbə olaraq başlayan Dadaş müəllim ali təhsil alan kimi A.Zeynallı adına Orta İxtisas Musiqi məktəbində (1963-1970 illərdə) müəllim kimi çalışmağa başlamışdı. Daha sonra 1970-ci ildən Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının Xalq Çalğı Alətləri kafedrasında müəllim, baş müəllim (1977-ci ildən), dosent (1994-cü ildən), dirijorluq kafedrasında professor (1998-ci ildən) vəzifələrində çalışıb, onlarla tələbə yetişdirib. Bir müddət (1999-2006-cı illər) Türkiyənin Atatürk Universitetində Gözel Sanatlar Fakültəsində işləyib. 2006-cı ildən bəri Azərbaycan Milli Konservatoriyasında professor vəzifəsində pedaqoji işini davam etdirir. Konservatoriyanın rektoru Siyavuş Kərimi də Dadaş müəllimin yetirmələrindəndir və hazırda onlar çiyin-çiyinə bu təhsil ocağında yanaşı çalışırlar [3, s.5]. İllərin təcrübəsinə əsaslanan dərslik və metodik vəsaitləri milli kadrlar, mütəxəssislər yetişdirməkdə az rol oynamamışdır. Hazırda D.Dadaşovun yetirmələri özləri təcrübəyə malik qabaqcıl musiqi xadimləridir. İllər uzunu “Azərbaycan xalq çalğı alətləri orkestrinin partitura oxunuşu” fənnini tədris etməsi, pedaqoji fəaliyyəti və nəhayət bir işıqlı, nurlu insan olması (maarifçilik, cəmiyyətə müsbət təsir göstərə bilmək bacarığı) onun həm də bəstəkar simasına daha bir neçə vacib ştrixlər əlavə edir.

Araşdırmamızın yekunu olaraq deyə bilərik ki, Dadaş Dadaşovun əsərləri Azərbaycan musiqisinin klassik irsinə aiddir. O, demək olar bütün janrlarda özünü sınamış və hətta rahat hiss edən bəstəkardır. Tapdığı yeniliklərdən arxayınlaşmayaraq təbiətcə daim yeni cığırlar arayan olduğundan təkrarlardan özünü xilas etmiş olur. 60-cı illər – Azərbaycan musiqi mədəniyyətinin yüksəliş dövründə yeni axtarışların axarına düşərək milli musiqi mədəniyyətimizin formalaşması və zənginləşməsində rol oynamışdır. Özünəməxsus dəsti-xətt yarada bilmiş bəstəkar milli və klassik, eləcə də müasir dövr ənənələrinin qovuşması və zənginləşməsinə nail olmuşdur. Məhz bu cəhətdən D.Dadaşov yaradıcılığı ümumən Azərbaycan akademik musiqisində baş verən prosesləri əks etdirməyə qadirdir. Kamera əsərlərində həyata keçirə bildiyi ideyalar instrumental musiqinin inkişafında böyük rol oynayıb. Onun iri əsərləri müxtəlif yaradıcılıq dövrlərində meydana gəldiyindən sanki şiş ucları sudan görünən aysberqlərdə olduğu kimi hesabat dövrləri (biz bura simfoniyaları, konsert və süitaları aid edə bilərik), kamera instrumental əsərləri isə, yenilikləri reallaşdıran təcrübə və sınaq meydançalarıdır. Bəstəkarın çoxcəhətli yaradıcılığında obraz müxtəlifliyini, ifaçılıqla bağlı elementlərlə əlaqədar melodik ifadəliyini, bütün bunları nəfis tərtibat verə bildiyindən orkestr ustalığını, eləcə də musiqi quruluşunda hədd bilmə duyğusunu xüsusi qeyd etməyimiz lazımdır. Milli musiqi irsi ilə bağlılıq muğam ornamentalizmi ilə əlaqədar melodiya, müasir texnika ilə çulğalaşmış məqam xüsusiyyətləri və özünəməxsus harmoniya yarada bilmişdir. Bəstəkar hətta seriya modusuna da özünəxas intonasiya gətirir. Muğam və məqamların bilicisi olduğundan birsəsli melodiyanın spesifikasını qoruyub saxlayaraq xalq musiqisindən gələn variantlıq, məqam üzərində gəzişmələr, spesifik ritm və dəyişkən metrik xüsusiyyətlərlə fərdi, təkrarsız üslub yarada bilmişdir.

**ƏDƏBİYYAT:**


1. Azəri L. Bəstəkar ömrünün naxışları: [Xalq artistinin yubileyinə həsr olunmuş musiqi festivalı haqqında] //Mədəniyyət. 2015. 9 dekabr. s.11
2. Azəri L. Vətənə sevgidən yaranan musiqi əsərləri: Xalq artisti Dadaş Dadaşovun 80 illiyinə həsr olunmuş musiqi festivalı // Mədəniyyət. 2015. 4 dekabr. s.4
3. Bəstəkar Dadaş Dadaşovun 80 illik yubileyi münasibəti ilə Siyavuş Kəriminin təbriki //"Konservatoriya" jurnalı, 2015-3, s.5-6 URL:http://konservatoriya.az/?p=1319
4. Əfəndiyeva İ.M. Axtarış yollarının bəhrəsi (Dadaş Dadaşov haqqında)// "Qobustan" toplusu, 2010-3, s.140-145
5. Ələsgərli K. Ağ işiğin sevinc çalari (Dadaş Dadaşov - 75)// "Musiqi dünyası" jurnalı, 2010, 1-2/43 s.98-101 URL:http://www.musigi-dunya.az/new/read_magazine.asp?id=1184
6. Həsənova N. Dadaş Dadaşovun "Çinarənin sevinci" əsərinin forma və ifa xüsusiyyətləri //"Konservatoriya" jurnalı, 2016-3, s.87-95 URL:http://konservatoriya.az/?p=1770
7. Hüseynova L.Ş. Yüksək meyar və keyfiyyət keşiyində: Dadaş Dadaşovun bəstəkar və müəllim portretinə bəzi ştrixlər // "Konservatoriya" jurnalı, 2015-3, s.6-11 URL:http://konservatoriya.az/?p=1315
8. "Qarayevsiz 25 il" festivalı. Annotasiya (müəllif-tərtibatçı Z.Dadaşzadə) B.: 2008, s.19
9. Müzəffərova Ş.B. Ağadadaş Dadaşov yaradıcılığının janr və üslub xüsusiyyətləri. Magistr dissertasiyası. AMK-nın kitabxanası. B.: 2018, 75 s.
10. Xalq artisti Dadaş Dadaşovun 80 illiyinə həsr olunmuş musiqi festivalı keçiriləcək // Mövqe. 2015. 3 dekabr. s.4

11. Zöhrabov R.F. Dadaş Dadaşov. / Bəstəkarlarımızın portreti. B.:, Gənclik, 1997, s.112-115

**Rus dilində:**

12. Авторский концерт композитора // газета «Бакинский рабочий», 21.11.1985
13. Дадашзаде З.А. Праздник музыки. // газета «Молодежь Азербайджана», 03.12.1985
14. Долинская Е. Отчет и праздник. // газета «Бакинский рабочий», 08.01.1986

**SAYTOQRAFİYA**

15. Azərbaycan bəstəkarları və musiqişünasları Ağadadaş Dadaşov. URL: http://composers.musigi-dunya.az/az/composers_d.html
16. Milli Konservatoriyada bəstəkar Dadaş Dadaşovun əsərləri səsləndirilib //AZƏRTAC, 02.06.2017 [13:08] URL:https://azertag.az/xeber/1066889
17. Məktəblinin elektron musiqi kitabxanası. Azərbaycan bəstəkarlari. Dadaşov Dadaş Hacibala oğlu (30.08.1935 ) URL:http://mk.musigi-dunya.az/composer_a_dadashov.html
18. Milli Konservatoriyada Xalq artisti Dadaş Dadaşovun musiqisi dinlənilib URL:http://conservatory.edu.az/milli-konservatoriyada-xalq-artisti-dadas-dadasovun-musiqisi-dinl%C9%99nilib/
19. Söz və musiqi bloqu. URL:https://sozmusiqi.wordpress.com/az/composer/dadash-dadasov/
20. Vikipediya, açıq ensiklopediya, Ağadadaş Dadaşov URL:https://az.wikipedia.org/wiki/A%C4%9Fadada%C5%9F_Dada%C5%9Fov

**VİDEOQRAFİYA**

21. Lider TV Səda verilişi. Dadaş Dadaşov 80 URL:https://www.youtube.com/watch?v=RcutPX0DuTk
22. Dadaş Dadaşov "Qanun konserti" I hissə İfa edir: Azərbaycan Dövlət simfonik orkestri, dirijor Fəxrəddin Kərimov, solist Gunel Adıgözəlova 17.11.2009 URL:https://www.youtube.com/watch?v=ptbKCoK5Qig
23. Dadaş Dadaşov Qanun və simfonik orkestr uçun Konsert "İlmələr" I hissə İfa edir: Ukrayna Simfonik Orkestri, dirijor: Kərimov Fəxrəddin Solist: Azərbaycan Respublikasının əməkdar artisti Çinarə Heydərova. 23.09. 2016. URL:https://www.youtube.com/watch?v=Gf7YeU650NU
24. Dadaş Dadaşov Qanun və simfonik orkestr uçun Konsert "İlmələr" II, III hissələr İfa edir: Azərbaycan Dövlət Simfonik Orkestri. Dirijor: Kərimov Fəxrəddin Solist: Azərbaycan Respublikasının əməkdar artisti Çinarə Heydərova. URL:https://www.youtube.com/watch?v=BZyG_31tl1E
25. Dadaş Dadaşov "Skerso" ("Çinarənin sevinci"), tar və fortepiano üçün işləyən Cəfər Qafarov. İfa edirlər: Rəhilə Məhərrəmova – tar, konsertmeyster Gülnarə Teymurzadə. URL: https://www.youtube.com/watch?v=U018zvXmm4Y
26. Dadaş Dadaşov "Çinarənin sevinci" İfa: 01.06.2016 URL:https://www.youtube.com/watch?v=-XedzkMwTHs
27. Dadaş Dadaşov "Skerso"("Çinarənin sevinci"), 12.04. 2014 Qanunda ifa edir Sədəf Abdullazadə URL:https://www.youtube.com/watch?v=Z7kzrXTvrOc
28. Dadaş Dadaşov "Skerso" İfa edir: qanunda Məhəmmədəlizadə Behnam Məhta, konsertmeyster Səbinə Mustafayeva 09.04.2017 URL:https://www.youtube.com/watch?v=gRb5X_XZm6w
29. Dadaş Dadaşov "Çinarənin sevinci" İfa edir: Qəmərtac Maqsudova 11.03.2016 г. (05:41) URL: https://www.youtube.com/watch?v=47hASZYwVh0

30. Dadaş Dadaşov "Skerso"("Çinarənin sevinci"), Qanun musiqisi gecəsi. İfa edir: Qara Qarayev adına Azərbaycan Dövlət Kamera orkestri. Dirijor Teymur Göyçayev. Solist: Qəmərtac Maqsudova (33.10-35.56) URL:https://www.youtube.com/watch?v=YiJRr8e3gYI
31. Dadaş Dadaşov "Skerso"("Çinarənin sevinci"), 17.04. 2016. İfa edir: Azərbaycan Dövlət Xalq Çalğı Orkestri. Dirijor: Ağaverdi Paşayev. Solist: Çinarə Heydərova URL:https://www.youtube.com/watch?v=d0h8QXdMv2A
32. Dadaş Dadaşov "Əlvan naxışlar" kapriççiosu. Beynəlxalq Avropa-Asiya festivalı. Kazan şəhəri. 12.04.2013. İfa edir: Mədinə Şahgəldiyeva, konsertmeyster Sevinc Kərimova. (8.30-13.55 dəq.) URL: https://www.youtube.com/watch?v=CUmBukPIyqA

**Чинара ГЕЙДАРОВА**
Педагог и докторант АМК

## ТВОРЧЕСКИЙ ОБЛИК КОМПОЗИТОРА ДАДАША ДАДАШЕВА В СОВРЕМЕННОЙ МУЗЫКЕ АЗЕРБАЙДЖАНА

***Резюме:*** *Статья посвящена творчеству композитора, народного артиста Азербайджана Дадашу Дадашеву. Прослеживается творческий путь композитора, дается общая характеристика стиля композитора. В процессе работы над статьей автором собраны все библиографические и интернет источники, касающиеся композитора, а также прозвучавшие исполнения, которые являются ценным материалом для исследователей. В статье особо выделяется отношение композитора к народной музыке, национальным инструментам и произведениям, специально написанным для национальных инструментов.*

***Ключевые слова:*** *Дадаш Дадашев, композитор, канон, национальные инструменты*

**Chinara HEYDAROVA**
Lecturer and doctoral student of AMK

## THE CREATIVE APPEARANCE OF COMPOSER DADASH DADASHEV IN MODERN MUSIC OF AZERBAIJAN

***Summary:*** *The article is devoted to the work of the composer, National artist of Azerbaijan Dadash Dadashev. The study traces the composer's creative path, gives a general description of the composer's style. In the process of work, all bibliographic and Internet sources relating to the composer, and sounded performances which are valuable materials for researchers, are collected. The article particularly highlights the attitude of the composer to folk music, national instruments and works specially written for national instruments.*

***Key words:*** *Dadash Dadashev, composer, qanun, national instruments*

**Rəyçilər:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Lalə Hüseynova
sənətşünaslıq üzrə elmlər doktoru, professor Ülkər Əliyeva